# "KREDO"DAN BÖYÜK ƏDƏBİ MÜHİTƏ

## ŞƏDDAT CƏFƏROVUN "ƏZƏLDƏN BAĞLIYAM SÖZƏ" KİTABI HAQQINDA DÜŞÜNCƏLƏR

Şəddat Cəfərovla elə də yaxın ünsiyyətim olmasa da, "onu yaxşı tanıyıram" deyə bilərəm. Çünki biz uzun illərdir ki, "Kredo" qəzetində bir araya gəlirik. Demək olar ki, müntəzəm olaraq "Kredo"-da onun da yazıları çap olunur. Əgər belə demək mümkünsə, biz hər ikimiz "Kredo"nun müəlliflərindənik. İnsan da bir-birini necə tanıyar? Zənnimcə, ən yaxşı tanımaq insanların mənəvi aləmləri ilə tanışlıqdır. Bu yolla adamlar bir-birinə doğmalaşır, yaxınlaşır, nəhayət, ünsiyyət bağlayır və həyatda da dostluq münasibətləri başlayır. "Kredo" qəzetində Şəddat müəllimin keçdiyi həyat yolunu əks etdirən çoxlu yazılar oxumuşam. Sonralar həmin yazıların bir yerə toplanıb "Böyük portretin işığı" (müəlliflər Ə.R.Xələfli və C.Zallı) adlı iki cildlik sənədli-publisistik kitab çap olundu. Əlbəttə, bu iki cildlik kitabda Şəddat müəllimin həyatı və yaradıcılıq fəaliyyəti kifayət qədər dolğunluğu ilə öz əksini tapıb. Eyni zamanda biz onun naşirlik fəaliyyəti ilə də yaxından tanış oluruq. Azərbaycanın ilk poliqrafçı alimi olduğunu da elə həmin mənbələr əsasında öyrənirik. Bir sözlə, Şəddat Cəfərov böyük ədəbi mühitə həm də "Kredo"dan gəlib. Axı onun çox dəyərli yumorlu hekayələri, publisist yazıları əvvəllər də digər mətbuat orqanlarında çap olunurdu. Keçmiş MDB məkanında yumorlu hekayələri rus və ukrayna dillərinə tərcümə edilərək nəşr olunub. Ancaq poliqrafiya sahəsindəki tədqiqatları ilə, bu sahəyə həsr olunmuş elmi kitabları ilə tanınan Şəddat Cəfərov son illər sistemli şəkildə ədəbi düşüncələrini də yazmağa başlayıb.

Şəddat Cəfərovun ədəbi düşüncələri maraqlı dəsti-xətti və ən başlıcası, orijinal məzmunu ilə diqqəti cəlb edir. Çünki bu ədəbi düşüncələrdə o, haqqında yazdığı müəlliflərin həm həyat yoluna nəzər yetirir, həm də onların ədəbi-bədii yaradıcılığının təhlilinə də geniş yer verir. Ən başlıcası, Şəddat Cəfərovun ədəbi düşüncələrində xatirələri də yer alır. Çünki kitab çapı ilə məşğul olduğu uzun illər ərzində Azərbaycanın ən görkəmli ədəbi simaları ilə yaxından tanış olub. Hətta imkanı olmayan müəlliflərin kitablarının nəşrinə köməklik göstərib. Şübhəsiz, belə məqamlarda insanların həssaslıqları üzə çıxır. Adamlar doğma münasibətdən, təmənnasız yardımdan təsirlənirlər. Bu təsirlənmələr isə hər kəsin yaddaşında iz buraxır. Zənnimcə, Şəddat Cəfərovun yazılarını oxunaqlı edən əsas cəhətlərdən biri də onun qeydlərinin xatirələrlə müşayiət olunmasıdır.

Zaman çox sürətlə ötüb keçir. Bəzən heç xəbərimiz olmur ki, həyatımızın müəyyən on illiklərini necə keçib gəlmişik. Amma yaddaşımızın işığında geriyə boylananda həyatımızın çox unudulmaz məqamlarını görə bilirik. Əlbəttə, bunlar kədərli də ola bilər, sevincli də. Ötüb keçən həyatın acısı da var, şirini də. Təsadüfi deyil ki, elə Şəddat Cəfərovun haqqında yazılmış sənədli romanlardan biri "Acılı-şirinli günlər" (müəllif F.Həsənqızı) adlanır. Onu da deyim ki, Şəddat Cəfərov haqqında çox yazılıb. Bu sıradan Sevda Əlibəylinin, İsaq Əmənullayevin və digərlərinin də adlarını çəkmək olar. Onların da çox maraqlı kitabları Şəddat Cəfərovun həyatının müxtəlif tərəflərini işıqlandırır.

Ancaq mən bu qeydlərimdə Şəddat Cəfərovun "Əzəldən bağlıyam sözə" adlı ədəbi düşüncələri haqqında mülahizələrimi bölüşmək istərdim. Doğrudur, əvvəlcə bir neçə kəlmə ilə mənə kompüter nüsxəsində təqdim olunmuş kitabın məziyyətləri haqqında rəy yazmaq istəyirdim. Ancaq səhifələri çevirdikcə gözlərimin önündən çox maraqlı müəlliflər sırası keçməyə başladı. Fərəhlə qeyd edərdim ki, Zəlimxan Yaqubun, Qara Tağızadənin, Əhməd Rumlunun, Yədulla Ağazadənin və Məqsud Mahmudovun, Ağamir Cavadın, Nijad Mikayılzadənin, Mahmud Mahmudovun, qəhrəman Polad Həşimovun, Qəşəm İsabəylinin, Şəkər Aslanın, Zəka Vilayətoğlunun, Əbdül Hüseynovun, Ramin Məmmədovun, Elşad Səfərlinin, Şamil Əhmədlinin, Sabir Bəşirovun... və bir çox başqalarının obrazları bir-birini əvəz etdikcə kitabın necə zəngin bir məlumat və eyni zamanda ədəbi təəssürat mənbəyi olduğunu təsəvvür etmək çətin olmadı.

Şəddat müəllim özü zəngin adamdır. Çünki bu adamların bir çoxu ilə zamanında ünsiyyət bağlayıb, dərin münasibətlər qurub. İstər-istəməz müəyyən əlamətdar günlərdə həmin adamları xatırlamalı olur. Yaxud onların kitablarını nəşr edir. Bu da Şəddat Cəfərova imkan verir ki, həmin müəlliflərin yaradıcı obrazlarını öz yazılarında canlandıra bilsin.

Bir məsələni də burada qeyd etmək istərdim. Şəddat müəllim hər hansı bir müəllifdən yazarkən əsas üçün həmin müəllifin kitabını götürür. Özü də həmin kitabla hələ nəşr olunmamış məqamında tanış olur. Başqa sözlə, bir naşir kimi hansı kitabı nə üçün çap etdiyinin fərqinə varır. Elə yazılarında da qeyd etdiyi kimi vətənin, millətin mənafeyinə zidd olan kitabı qətiyyən nəşr etməz. O, nəşr etdiyi hər bir kitabla əslində cəmiyyətə ziyalılıq borcunu ödəməyə çalışır. Bu məsuliyyətə görə nəşr etdiyi kitabı mütləq mənada yaxşı-yaxşı öyrənir. Bu da ona imkan verir ki, həmin kitabın nəşrindən sonra təəssüratlarını oxucu ilə bölüşsün. Şəddat Cəfərovun qeyd etdiyi kimi o, Zəlimxan Yaqubla uzun illər sıx ünsiyyətdə olub. Hətta Zəlimxan Yaqub onu görkəmli naşir kimi, böyük Azərbaycan ziyalısı kimi xarakterizə edən təəssürat-qeydlər də yazıb. Sonralar Zəlimxan Yaqubun ədəbi düşüncədəki ye-



rini göstərən kitablar nəşr edib. Və nəhayət, "Saz" poemasını miniatür kitab halında çap etməyə nail olub. Onun Zəlimxan Yaqubla bağlı yazdığı qeydlərin dəyərini elə sərlövhədən də başa düşmək olar: "Ulu Zəlimxan, ulu saz...".

"Saz" poeması miniatür kitab mədəniyyətimizin ən gözəl səhifələrindən birini təşkil edir. Şübhəsiz, "Saz"ın miniatür kitab şəklində dərc olunub ədəbi abidəyə çevrilməsi xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, Azərbaycanda çox nadir bir muzey var. Bu Zərifə Salahovanın təşəbbüsü ilə yaradılmış miniatür kitab muzeyidir. "Saz" poeması da məhz bu muzeydə özünün layiqli yerini tutub. Şəddat müəllim "Saz"ın miniatür kitaba çevrilməsinin qısa tarixini də maraqlı faktlarla oxucuya çatdırır: *"Zəlimxan Yaqubun ""Saz" poeması da miniatür kitab kimi çap ediləndə, onun Z.Salahovanın miniatür kitab muzeyində özünün layiqli yerini tutacağına inanırdıq. Çünki həm Azərbaycanın böyük sənətkarı Zəlimxan Yaqub mədəniyyət və ədəbiyyat tariximizin görkəmli siması olaraq bu miniatür kitab muzeyində təmsil olunacaqdı, həm də onun yaratdığı ölməz "Saz" poeması miniatür kitab abidəsi ilə buraya gələnlərin diqqətini cəlb edəcəkdi. Xarici qonaqlar çox vaxt bilmirlər ki, gəldikləri ölkənin hansı mənəvi sərvətləri ilə tanış olsunlar. Onlar miniatür muzeydə "Saz" miniatür kitabını görəndə istər-istəməz saz haqqında da düşünməli olurlar. Biz əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun redaktorluğu ilə Zəlimxan Yaqubun "Saz"poemasını nəşrə hazırladıq. Bu işə qədər bu sahədə təcrübəmiz az idi. Ancaq mən texniki cəhətdən "Saz" miniatür kitabını hazırlaya biləcəyimizə arxayın idim. Çünki bunun üçün bizim texniki imkanlarımız var idi*". Bu qeydləri oxuyan hər hansı bir kəs istər-istəməz miniatür muzeyə can atar və orada intizarlı baxışlarla "Saz"ı axtarar.

Məlumdur ki, mənim tədqiqatlarımın çox böyük hissəsi folklorla - Azərbaycan şifahi xalq ədəbiyyatı ilə bağlıdır. Ayrı-ayrı vaxtlarda Azərbaycanın klassik aşıqları haqqında məqalələrlə çıxış etmişəm, fikirlərimi oxucularla bölüşməyə çalışmışam. Kimsəyə sirr deyil ki, tarixi-mənəvi dəyərlərimizin qorunmasında aşıq sənətimizin əvəzsiz rolu var.

Aşıq sənəti deyəndə, əlbəttə, birinci olaraq aşıq şeirinin janrları da yada düşür. Qoşma, gəraylı, müxəmməs, divani, təcnis və s. İndi qərb düşüncəsinin təsiri ilə sazı, aşıq yaradıcılığını köhnəlmiş hesab edənlərə demək istəyirəm ki, Zəlimxanı danmaq mümkündürmü? Əgər aşıq yaradıcılığı belə asanlıqla köhnəlmiş olsaydı, onda Dirili Qurbani indiyə qədər yaşayardımı? Mənim bu tipli düşüncələrimi Şəddat Cəfərov Zəlimxan Yaqubun "Saz"ı ilə bağlı qeydlərində daha emosinal, daha duyğulu ifadə edir: *"Məlumdur ki, Zəlimxan Yaqub Azərbaycan klassik poeziyasını və klassik aşıq sənətini kifayət qədər dərindən bilən bir sənətkar idi. Onun yaradıcılığında Nizamini də, Füzulini də, Nəsimini də, Vidadini də, Vaqifi də, Natəvanı da... Cavidi də, Səməd Vurğunu da görürük. Əlbəttə, Zəlimxan Yaqub aşıq poeziyasının qüdrətli nümayəndələri - Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım... Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir... və digərlərindən gələn hisslərdən, duyğulardan da bəhrələnib.*

*"Danış, telli sazım" adlı bölmə də öz ad, öz ünvanını Aşıq Hüseyn Cavandan götürür. Aşıq Hüseyn Cavanın məşhur bir qoşması var. Bir bəndi belədir:*

*"On dörd pərdən, doqquz gümüş telin var,*
*Milyon nəğmən, yetmiş iki dilin var.*
*Ürəklərdə, könüllərdə yerin var,*
*Danış, telli sazım, danış, sən danış".*

*Təkcə elə bu bəndin motivi bəs edir ki, Zəlimxan Yaqub öz ilhamı ilə alovlansın. Şair Hüseyn Cavanı da çox sevirdi. Elə ona görə də "Saz" poemasında demək olar ki, proqram mətni Hüseyn Cavan poeziyasından gələn motivlə başlayır. Amma o motivi təkrar eləmir*". Özü də yeri gəldikcə ustadların şeirlərindən də nümunələr gətirir. Zəlimxan Yaqub ustadları necə hörmətlə xatırlayırsa, Şəddat Cəfərov da Azərbaycanın klassik sənətkarlarını həmin hörmət və ehtiramla yad edir.

Açığı, Şəddat Cəfərovun Zəlimxan Yaquba sonsuz məhəbbəti və sevgisi elə onun qeydlərindən, Zəlimxan Yaqubun sözlərinə münasibətindən duyulur. Necə ki, Zəlimxan Yaqub "Saz"da öz aləmini yaradırdı, elə Şəddat Cəfərov da bu qeydlərində özünün xalq sənətinə olan məhəbbətini ifadə edir. Bizi də özü ilə birlikdə Zəlimxan Yaqub aləminə aparır: *"Özünün Zəlimxan Yaqub aləmini yaradır. "Saz" miniatür kitabında verdiyimiz bir neçə bənd də həmin hissədən xatırlatmaq istəyirəm:*

*Əl açıb göylərə çox yalvarmışam,*
*Qoy bu gün saz olsun Allahım mənim.*
*İstəyim tanrının xətrinə dəysə,*
*Gərək bağışlana günahım mənim*

*Təklənib, qəmlənib, yalqız olanda,*
*Çiçəyim saralıb, gülüm solanda,*
*Qəlbim kövrələndə, gözüm dolanda,*
*Sazdı ümid yerim, pənahım mənim.*

*Doğrudan danışan, düzdən oxuyan,*
*Ən nurlu kəlmədən, sözdən oxuyan,*
*Odur ürəyimi gözdən oxuyan,*
*Gizli nöqtələrdən agahım mənim.*

*Beləcə, saz pərdə-pərdə ödükcə Zəlimxan Yaqub poeziyasının ecazkar aləminə qovuşuruq*". Bu yerdə bir məqama da diqqəti çəkmək istərdim. Şəddat Cəfərov kitab mədəniyyətimizdə xidməti olan hər kəsin adına hörmətlə yanaşır. Hər hansı bir kitabın nəşrində iştirak etmiş mətbəə işçilərinin adlarını belə xüsusi diqqət və qayğı ilə çəkir. Bu da insana insani münasibətin təzahürüdür. Hər hansı bir sıravi mətbəə işçisi zəhmətinin yaşarlıq aldığını öz adı ilə hiss edir. Bütün bunlar müəllif həssaslığından xəbər verir.

(Davamı 9-cu səhifədə)

# "KREDO"DAN BÖYÜK ƏDƏBİ MÜHİTƏ

*(Əvvəli 8-ci səhifədə)*

Daha bir maraqlı yazı da diqqətimi cəlb etdi; "Qara Tağızadənin ağ dünyası"... Ədəbiyyatda, söz sənətində təzadlardan uğurla faydalanmaq sözü daha təsirli edir. Şəddat Cəfərov növbəti qeydlərində görkəmli diktor Qara Tağızadədən danışır. Onun həyat yoluna nəzər salır. İşıqlı düşüncələrini şərh edir. Şeirlərinə münasibət bildirir və çox ustalıqla "qara" adına təzad yaradan "ağ dünya" ifadəsi ilə başlıqda cəm olunmuş mahiyyəti təqdim edir.

Daha bir obraz da xüsusi marağıma səbəb oldu. Bu, Əhməd Rumlu obrazıdır. Biz onu "O olmasın, bu olsun" filmindən tanıyırıq. Məşhur hambal kimi. Sən demə, Əhməd Rumlu çox incə ruhlu qəzəllər müəllifi imiş. Mən də bu qeydlərimin arasına elə Şəddat Cəfərovun təqdimatından daha bir parçanı daxil edirəm: *"Burada Əhməd Rumlunun ruhları oxşayan qəzəllərini də gərək ayrıca qeyd edək. Bizim mətbəədə nəşr olunan "Qəzəllər" kitabında elə könül oxşayan qəzəllər var ki, bir dəfə oxumaqla yaddaşa ömürlük təəssürat yazır:*

*Ey könül, aşiq odur cövrü cəfadən qorxmasın,*
*Yarın hicranındakı yüz min bəladan qorxmasın.*

*Zövqi-eşqi olmayan çəksin bu meydandan ayaq,*
*Girsə gər meydanə, dəhşətdən, xətadan qorxmasın.*

*Mən elə rüsvayi-eşqəm yoxdu qorxum kimsədən,*
*Qorxubilməzlər gərək dövrü qəzadən qorxmasın.*

*Şad olur, ey can, qəmi-hicranına düşdükcə can,*
*Bülbüli-şeyda ona derlər, nəvadən qorxmasın.*

*Eşq qəvvası olan kəs düşsə də tufanlara,*
*Nuh tək, Rumlu, gərək seyli bəladən qorxmasın.*

*Bu qəzəli oxuyanda istər-istəməz belə bir fikir mənim xəyalımdan keçdi. İndi Azərbaycanda muğam sənəti yeni mərhələyə qədəm qoyur. Çox maraqlı, yaddaqalan muğam müsabiqələri keçirilir. Gənc nəsildən tələb olunur ki, ayrı-ayrı muğamların ifasında təkrar olunan qəzəllərdən imtina etsinlər. Klassik ədəbiyyatımızın digər maraqlı örnəklərinə müraciət etsinlər".* Bu qeydlər Azərbaycanın çox dəyərli sənətkarına münasibətin ən yaxşı təzahürüdür. Biz Şəddat Cəfərovun diqqətli yanaşmasında həm Əhməd Rumlunun poetik ruhunu qavrayırıq, həm də Şəddat müəllimin özünün ədəbi zövqünü hiss edirik, duyuruq. Şəddat Cəfərovun daha bir yazısı görkəmli dilçi alim Məsud Mahmudovun həyatından bəhs edən kitabla bağlıdır. Bu kitabın müəllifi professor Yədulla Ağazadədir.

Yədulla Ağazadə Məsud Mahmudovun ziyalı portretinin yaradılması üçün kifayət qədər zəhmət çəkib və bu zəhmətin bəhrəsi olaraq "Ömür kitabından səhifələr" ərsəyə gəlib. Həmin kitabı xarakterizə edərkən Şəddat müəllim xüsusi diqqət göstərir. Məsud Mahmudovu əhatə edən mühitə məhz Yədulla Ağazadənin təqdimatı ilə nüfuz edə bilir: *"Ancaq bu kitaba toplanmış və ədəbi qəhrəmanın mənəvi mühitini əks etdirən fraqmentlərin hər biri Məsud Mahmudov kimi görkəmli alimin zəngin mənəvi aləminə işıq salır. Bundan sonra müəllif akademik Bəkir Nəbiyevin, akademik Ağamusa Axundovun, akademik R.Q.Piotrovskinin, akademik Vasim Məmmədəliyevin, akademik Tofiq Hacıyevin, akademik Cəlal Allahverdiyevin, əməkdar elm xadimi Qəzənfər Kazımovun, professor Nadir Məmmədlinin və digərlərinin Məsud Mahmudov haqqındakı bəzən geniş, bəzən müxtəsər qeydlərini təqdim edir. Maraqlıdır ki, bütün qeydlərdə, hətta ən müxtəsər qeydlərdə belə Məsud Mahmudovun mükəmməl obraz görünür. Bunun da səbəbi var. Və bu səbəb də ondan ibarətdir ki, Məsud Mahmudov həm şəxsiyyəti, həm də elmi-bədii yaradıcılığı ilə elmi-mənəvi mühitimizdə tam mükəmməlliyi ilə görünə bilir. Müəllif təqribən bu tipli qeydlərə kitabın əvvəlində əlli səhifədən çox yer ayırır. Zənnimcə, bu da uğurlu bir təqdimatdır. Çünki məşhur bir misal var, deyirlər ki, dostunu göstər, sənin necə adam olduğunu mən özüm deyərəm. Azərbaycanın çox tanınmış ziyalılarının, eləcə də dünya elminin görkəmli nümayəndələrinin Məsud Mahmudovu belə yaxşı tanımaları, onun elmi fəaliyyətinə yüksək dəyər vermələri, əlbəttə, mənim də qəlbimi qürur hissi ilə doldurur".* Şəddat müəllim ədəbi düşüncələrində obraza birtərəfli yanaşmır. Haqqında yazdığı kitabı yaxşı öyrəndiyi üçün obrazın indiyə qədər ictimailəşməmiş tərəflərini də təqdim edə bilir. O, Yədulla Ağazadənin kitabı əsasında faktlara söykənərək Məsud Mahmudovun gözəl, lirik şeirlər müəllifi olduğunu da diqqətə çəkir.

Daha bir maraqlı qeyd də diqqətimi çəkdi: *"Məsud Mahmudov ziyalı alicənablığı ilə günümüzün tanınan simalarından biridir. Ə.Xələflinin ona həsr etdiyi dördlükdə də görkəmli ziyalının obrazını qavramaq çətin deyil:*

*"Həqiqət daşa dəysə, doğruda kəsər qalmaz,*
*Söz haqqa tapınmasa, yaşarı əsər qalmaz,*
*Yaşadığın dünyanın işığı ola bilsən,*
*Dağılar qaranlıqlar, zülmətdən əsər qalmaz".*

*Doğrudur, bu dördlük Məsud Mahmudova həsr olunub, amma bu dördlüyün bədii obrazı kimi mən həm də Yadulla Ağazadəni görürəm".* Qeydlərinin sonunda Şəddat Cəfərov "ziyalıların birliyi cəmiyyətin birliyidir" deyir. Xüsusilə vurğulayır ki, uca ziyalı adını daşımaq nə qədər böyük şərəfdirsə, bu şərəfli ada dəyər vermək özü də mənəvi ucalıqdan xəbər verir. Şübhəsiz, mən özüm də burada Şəddat Cəfərovun obrazını görürəm.

Ağamir Cavad Lənkəranda yaşayıb-yaradır və ədəbi mühitimizdə çox yaxşı tanınır. Kitabları ilə oxucu qəlbinə yol tapmış sənətkardır. Onun yaradıcılığı da Şəddat Cəfərovun xüsusi olaraq diqqətindədir. Onu da deyim ki, Şəddat Cəfərov hər hansı bir müəllifə borclu qalmır. Onların dünyaları ilə geniş ədəbi ictimaiyyəti tanış edir. Ağamir Cavad Şəddat Cəfərov haqqında "Ömrünü xalqına paylayan adam" adlı lirik poema yazıb. Bu əsərində Şəddat Cəfərovu xeyirxah bir insan kimi xarakterizə edir. Şəddat müəllim beləcə mühitin içərisində mühitin özüylə nəfəs ala bilən müəlliflərdəndir.

Azərbaycanın çox görkəmli bir lüğətçi alimi vardı; Nijad Mikayılzadə. Nijad müəllim poliqlot idi, 8-dən çox dil bilirdi. Bu imkanlarını xalqına sərf etdi. Çoxdilli lüğətlər hazırladı. Filosof, sosioloq kimi də maraqlı tədqiqatları vardı. Sözün həqiqi mənasında o bir fenomen idi. Şəddat müəllimin Nijad Mikayılzadəyə həsr olunmuş "Unudulmayan Nijad fenomeni" yazısı görkəmli alimin "Həyat haqqında düşüncələr" miniatür kitabının məziyyətlərindən danışır.

Təkcə elə Nijad Mikayılzadə haqqında qeydlərinə görə Şəddat Cəfərova ayrıca minnətdarlıq düşür.

Daha bir yazı da ayrıca diqqət çəkir; "Sərgimizin qürurlu Poladı". Bu yazıda Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun həyat və döyüş yolundan bəhs edən kitabdan danışılır. Şəddat müəllim həmin yazısında qəhrəmanların döyüş yolunu həm də vətənpərvərlik məktəbi adlandırır. Deməli, hər hansı bir qəhrəmanın ən üstün keyfiyyətləri yeni nəslə aşılanmalıdır. Bu da yazı ilə, kitabla mümkün ola bilir.

Kitabda daha geniş və əhatəli yazılardan biri də "Həyatımın Qəşəm İsabəyli güzgüsü" adlanır. Qəşəm İsabəyli dövrümüzün görkəmli şairlərindən, publisistlərindən biridir. O da uzun illər naşirlik fəaliyyəti ilə məşğul olub. Naşirlik işində Şəddat müəllimi ustadı hesab edir. Ən başlıcası, ustadının həyatını ədəbi sözlə əbədiləşdirən bir əsər yaradıb. Çox maraqla oxunan bir povestdir. Şəddat müəllim həssaslıqla həmin povestin məziyyətlərindən danışır və Qəşəm İsabəylinin yüksək sənətkarlığını təqdir edir.

Şəddat Cəfərov yeri gəldikcə canlı dil elementlərindən də faydalanır, bu da onun qeydlərini daha oxunaqlı və maraqlı edir: *"Yazıya pozunun olmadığı haqqında el məsəlinin hikməti məni həmişə düşündürüb. Həqiqətən, əgər yazıya pozu olsaydı, onda bu gün bizim üçün mənəvi sərvətlər kasadlığı olardı. Nizamimiz olmazdı, Füzulimiz olmazdı... Və deməli, həm də Qəşəm İsabəylimiz olmazdı. Hərdən sosial şəbəkədə köhnə dostum Qəşəm İsabəylinin cəmiyyətin sosial problemlərinə işıq tutan fəlsəfi şeirlərini öz dilindən eşidirəm. Onun fikir aləmi, düşüncə aləmi məni həmişə öz cazibəsinə çəkib. Bəlkə də, indi Qəşəm İsabəylinin mənim də həyatımın xeyli hissəsinə güzgü tutan xatirə povestinə müraciət etməyimin əsas səbəbi elə budur. ".* Şəddat müəllimi bu qeydlərə vadar edən Qəşəm İsabəylinin "Bu şəhər mənə gözdağı olub" adlı xatirə povestidir. Bu povestin məziyyətlərindən danışanda Şəddat Cəfərov əsil sərişteli söz sərrafı kimi gözlərimizin önündə canlanır. Çünki Qəşəm İsabəyli necə əsərində təqdim etdiyi obraza həssas yanaşırsa, Şəddat Cəfərov da onun yazıçı təbiətinə həssaslıqla yanaşır. Sənətkarların yaradıcılıq yolu hansısa cəhətdən bir-birinə bənzəyir. Başqa sözlə, bir sənətkar digər sənətkarın hansı ağrılarla yaşadığını yaxşı başa düşür. Bununla da sanki dil birliyi yaranır.

Şəddat Cəfərov "Bu şəhər mənə göz dağı olub" xatirə povestinin cazibədarlığını çox maraqlı cizgilərlə verir: *"Əsər boyu cümlələr içərisinə yığılmış zamanı görmək, buraya hopdurulmuş həyatı təzədən görmək ötəri duyğular deyil, bu sanki həyatı yenidən yaşamaqdır. ...Qəşəm İsabəyli xarakterizə etdiyi obrazı birdən-birə təqdim etmir. Sanki onu izləyir. Qarabağara onun iziylə gedir. Kimliyini özü üçün aydınlaşdırır. Yalnız bundan sonra mətləbə keçir.*

*Xatirə povestində də elə bu yolla gedib. Hələ mənim özümlə şəxsən tanış olmamış, yaddaşına hopmuş xatirə epizoddan məharətlə istifadə edir. Sanki obrazı yaratmağın bir yolunun da müşahidələri dərinləşdirməkdən ibarət olduğunu diqqətə çatdırır. Üstəgəl, məqsədinə yetmək üçün yaddaşın hansısa küncündə ilişib qalmış cüzi xatirəni belə körpü məqamına gətirir".* Şəddat Cəfərov həmin povest haqqında geniş danışır. Hətta mən deyərdim ki, o sanki bir povest haqqında povest yazıb.

Şəddat Cəfərovun bu kitabında geniş yer verdiyi ədəbi qəhrəmanlardan biri də şair alim Elşad Səfərlidir. Elşad Səfərli Nizami Gəncəvinin şərq fenomeni olduğunu və bu fenomenin türk mənəviyyatı ilə bağlılığını təsdiq edən dəyərli bir tədqiqat əsəri yaradıb. Həmin əsər vasitəsi ilə müəllif bədxah qonşularımıza da tutarlı cavab vermiş olub. Şəddat Cəfərov da bunu diqqətindən qaçırmır. "Türkanə sözün misilsiz ustadı" ilə bağlı qeydlərində görkəmli alimin sözün həqiqi mənasında çox dəyərli xidmətlərini uca tutur, yüksək dəyərləndirmə müstəvisinə çəkir. "Əzəldən bağlıyam sözə" kitabında Əli Rza Xələflinin, Sevindik Nəsiboğlunun, Avdı Qoşqarın və digər bir çox sənətkarların həyat və yaradıcılığını əhatə edən kitabların təhlilinə geniş yer ayrılıb. Zənnimcə, bu kitab oxucular arasında xüsusi marağa səbəb olacaq. Ən başlıcası, Şəddat Cəfərovun özünün də ədəbi düşüncəmizdə əbədi yaşarlığını təmin edəcək.

Sözümün bu yerindəmaraqlı bir müqayisə yaddaşıma gəldi:Bu günlərdə Bəkir Çobanzadə ilə bağlı tədqiqatlarımı iri həcmli "Bəkir Çobanzadə" adlı monoqrafiyada ümumiləşdirib çap etdirdim. Elə bil ki, mənəvi mühitimdə olan ağır bir yükdən xilas oldum. Həmin kitaba "ön söz" əvəzi bir neçə kəlmə yazmalı idim. Demək olar ki, işlərimin hamısını bitirmişdim. Bəs indi nə yazaydım? Başı bəlalı Krım gözlərimin önünə gəldi. Krım tatarlarının taleyini bir daha yaddaşımdan keçirdim. Düşündüm ki, elə Bəkir Çobanzadənin mənəvi varlığı tarixi Krımın yaşaması deməkdir. "Ön söz" əvəzi qeydlərimə belə bir başlıq seçdim: "Krımdan üzü dünyaya". Şəddat Cəfərovun "Əzəldən bağlıyam sözə" kitabıyla bağlı qeydlərimə buna bənzər bir başlıq seçdim: "Kredo"-dan böyük ədəbi mühitə. Əlbəttə, bu müqayisənin özünə də bir qədər obrazlı yanaşmaq lazımdır.

Ədəbi düşüncəmiz xalqımızın mənəvi mühitini əks etdirir. Tarixi-mənəvi dəyərlərimizin qorunmasında ədəbi düşüncəmizin xidmətləri əvəzsizdir. Şəddat Cəfərovun "Əzəldən bağlıyam sözə" kitabı ədəbi düşüncəmizin ən oxunaqlı səhifələrindən biri kimi həmişə oxucu marağında olacaq.

07.04.2023



**Mahmud ALLAHMANLI,**
**filologiya elmləri doktoru,**
**professor**